DÖVLƏT VERGİ XİDMƏTİ

# Torpaq vergisi ödəyicisi olan müəssisələrin nəzərinə!

**Vergi Məcəlləsində edilmiş dəyişikliyə əsasən, 01.01.2024-cü il tarixdən etibarən**

- Müəssisələr torpaq vergisini torpaq sahələrinin ölçüsünə və torpaq vergisinin dərəcələrinə əsasən illik olaraq hesablamalı və 2024-cü ildən başlayaraq hesabat ilindən sonrakı il **yanvarın 31-dən** gec olmayaraq bəyannaməni vergi orqanına təqdim etməlidir.
- Müəssisələr tərəfindən torpaq vergisi üzrə **cari vergi ödənişləri 15 avqust və 15 noyabr** tarixlərindən gec olmayaraq bərabər məbləğlərdə ödənilməlidir. Hər ödəmənin məbləği əvvəlki vergi ilində hesablanmış vergi məbləğinin 1/2 hissəsini təşkil edir.

**Dövlət büdcəsinə ödənilməli olan vergilər barədə ətraflı məlumatla www.taxes.gov.az internet saytında tanış ola bilərsiniz.**

BAKI — 2024

195

AZ1029, Azərbaycan, Bakı, Heydər Əliyev prospekti, 155
Tel.: (+994 12) 403 89 70; Faks: (+994 12) 403 89 71
E-poçt: office@taxes.gov.az

www.taxes.gov.az

- Əvvəlki hesabat ilində torpaq vergisi ödəyicisi olmayan və növbəti ildə bu verginin ödəyicisi olan,
- habelə yeni yaradılmış və torpaq vergisi ödəyicisi olan müəssisələr torpaq sahələrini əldə etdikdən (o cümlədən dövlət və bələdiyyə mülkiyyətində olan torpaqlardan icarə və ya digər əsaslarla istifadə hüququ yarandıqdan) sonra bu maddədə müəyyən edilmiş müddətlərdən gec olmayaraq hər ödəniş üzrə həmin torpaq sahələrinə görə hesablanmalı olan illik torpaq vergisi məbləğinin **50 faizi** miqdarında cari vergi ödənişlərini yerinə yetirirlər.

Vergi ödəyicisinin hesabat dövründə torpaq sahəsinə mülkiyyət hüququ, habelə dövlət və bələdiyyə mülkiyyətində olan torpaqlardan icarə və ya digər əsaslarla istifadə hüququ yarandıqda və ya bu hüquqa xitam verildikdə, həmin torpaq sahəsinə münasibətdə vergi məbləğinin hesablanması bu torpaq sahəsinin vergi ödəyicisinin mülkiyyətinə (icarə və ya digər əsaslarla istifadəsinə) keçdiyi aydan sonrakı aydan etibarən **mülkiyyətində (icarə və ya digər əsaslarla istifadəsində) olduğu ayların sayına mütənasib** olaraq aparılır.

**Qeyd:** Hüquqi şəxs və ya qeyri-rezident hüquqi şəxsin daimi nümayəndəliyi ləğvetmə balansını qeydiyyat orqanına təqdim etdiyi tarixdən **30 gün** müddətində torpaq vergisi bəyannaməsini vergi orqanına təqdim etməyə borcludur.

**Dəyişikliyə qədər**

- Torpaq vergisini müəssisələr **illik olaraq** hesablayır və **həmin il mayın 15-dən gec olmayaraq** bəyannaməni vergi orqanına təqdim edirdilər. Torpaq vergisi bərabər məbləğlərdə həmin ilin 15 avqust və 15 noyabr tarixlərindən gec olmayaraq ödənilirdi.
- Həmçinin, fiziki şəxslər və müəssisələr tərəfindən dövlət və bələdiyyə mülkiyyətində olan torpaq sahələri ilin müxtəlif aylarında icarəyə və ya digər əsaslarla istifadəyə götürülür və ya icarə və ya istifadəyə xitam verilir. Bu halda torpaq sahəsi həmin şəxslərin istifadəsində ilin müəyyən bir hissəsində olsa da, torpaq vergisi illik olaraq müəyyən edildiyindən vergi tam şəkildə ödənilirdi.

**Nə dəyişdi?**

- Hüquqi şəxslər tərəfindən torpaq vergisi bəyannaməsinin təqdim edilməsi müddəti dəyişdirilərək hesabat ilindən sonrakı ilin yanvar ayının 31-dək müəyyən olundu.
- Cari vergi ödəmələrinin vaxtı (15 avqust və 15 noyabr tarixlərindən gec olmayaraq) və məbləği (əvvəlki vergi ilində hesablanmış vergi məbləğinin 1/2 hissəsi) tənzimləndi.
- Hüquqi şəxsin ləğvi halında, habelə il ərzində dövlət və bələdiyyə mülkiyyətində olan torpaqlardan icarə və ya digər əsaslarla istifadə hüququ yarandıqda və ya bu hüquqa xitam verildikdə verginin hesablanması qaydası müəyyən edildi.